# «Şərhin poetik notları»

***Tanınmış şair-publisist Əli Rza Xələflinin 2022-ci ildə «Vətən» nəşriyyatında tənqidçi-ədəbiyyatşünas Qurban Bayramovun redaktorluğu ilə «Şərhin poetik notları» irihəcmli kitabı çap olunub.***




Kitabda, annotasiyadan da göründüyü kimi, müasir poeziyamızın tanınmış nümayəndələri - Ağacəfər Həsənli, Afaq Şıxlı, Ağamir Cavad, Balayar Sadiq, Cavad Zeynal, Dayandur Sevgin, Əbülfət Mədətoğlu, Əjdər Ol, Xanəli Kərimli, Xutra Ramazan, İlham Qəhrəman, Qəndab, Qələndər Xaçınçaylı, Maşallah Məftun, Malik Əhmədoğlu, Məhəbbət Nizam, Məzahir Zeynal, Mövlud Teymur, Nəcməddin, Nəsir Xankişiyev, Nəsir Qədirli, Rəfail İncəyurd, Səyyad Sərraf, Sevindik Nəsiboğlu, Vaqif İsaqoğlu, Vəliyulla Novruzov, Müslüm Mahir Hikmət, İnqilab İsaq, Dilsuz Musayev, Əlirza Həsrət, Nübar Eldarqızı, Hikmət Məlikzadə, Zəkulla Bayramlı, Fikrət Qoca və Kərəm Salahoğlunun yaradıcılığı haqqında ədəbi-publisistik düşüncələri toplanıb. Kitabdakı məqalələr son dərəcə canlı, müasir koloritli, essevari şəkildə əks edir.

Səmimi deyək ki, adıçəkilən kitabda maraqlı-mənalı həyat eskizləri var, müəllifin ədəbi-publisistik təəssüratları məxsusi olaraq bu amillə səciyyələnir. Həmçinin, milli-mənəvi dəyərlər, insanpərvərlik duyğuları bu kitabın uğurlu istiqamətidir, hər məqalədə bu hiss çox fərqli tonda öz ifadəsini tapır. Burada zaman-insan amili də publisistik təfəkkürün tərkib hissəsi kimi çıxış edir.

Məqalələrdə ictimai rakurslar da özünü (daha qabarıq) xarakterizə edir, lakin bu «təlatümlü tərpənmələr»də gərəksiz pafos yoxdur; çünki müəllif onları öz (uğurlu) publisistik-ədəbi düşüncəsinin, təravətli duyğularının ehtivası kimi təqdim edib.

**H.Məlikzadə**